AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Ü.HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI

*Əlyazması hüququnda*

**ARİFƏ HACIBABA QIZI QƏRİBOVA**

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ UŞAQLARIN MUSİQİ TƏRBİYƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

**5801.01-Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası**
**(Musiqi tədrisi metodikası)**

pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2014**

*İş Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Metodika və xüsusi pedaqoji hazırlıq” kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər**: *pedaqogika üzrə elmlər doktoru, professor*
**Jalə Həmid qızı Qədimova**

**Rəsmi opponentlər:** **Oqtay Məmmədağa oğlu Rəcəbov**
*Azərbaycan Respublikasının Əməkdar müəllimi, Rusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyasının həqiqi üzvü, pedaqogika üzrə elmlər doktoru, professor*

*pedaqogika üzrə fəlsəfə doktoru*
**İradə Ağaəli qızı Məmmədova**

**Aparıcı təşkilat**: Azərbaycan Müəllimlər İnstitutu, “İbtidai və məktəbəqədər təhsilin metodikası” kafedrası.

Müdafiə «30» sentyabr 2014-cü ildə saat 12-$^{00}$ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ. 1014, Bakı şəhəri Ş.Bədəlbəyli, 98

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat avqust ayının ______ 2014-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru: **H.V.MƏMMƏDOVA**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Respublikamızda dövlət müstəqilliyinin bərpası hər sahədə olduğu kimi, sosial və mədəni quruculuq sahəsində də islahatların aparılmasını ön plana çəkir. Təhsil sahəsində gedən inkişaf prosesi onun məzmununun dünya standartlarına uyğun aparılmasını, milli və ümumbəşəri dəyərlərə, xalqımızın tarixinə, mənəviyyatına, milli ənənələrinə uyğun şəkildə qurulmasını tələb edir.

Respublikamızda yüksək intellekt bacarığı, ünsiyyət, əməkdaşlıq qabiliyyəti olan, milli və bəşəri dəyərlərə yiyələnmiş, müstəqil fikir söyləməyi bacaran, hüquqlarını dərk edən vətəndaşların yetişdirilməsi təhsil sisteminin qarşısında əsas məqsəd kimi qoyulmuşdur.

Bildiyimiz kimi təhsil sisteminin bünövrəsini məktəbəqədər təhsil təşkil edir. Danılmaz faktdır ki, sovet dönəmində də məktəbəqədər tərbiyə müəssisələrində uşaqların təlim və tərbiyə məsələləri həmişə diqqət mərkəzində olmuşdur. Bunun nəticəsi olaraq məktəbəqədər təhsil müəssisələrinin şəbəkəsi yaradılmış, milyonlarla insanlar öz uşaqlıq dövrünü məhz burada keçirmiş, buradan pərvazlanmış, vətənə, xalqa xidmət etmək, onu sevmək kimi nəcib hisslərin əsasları məhz burada qoyulmuşdur.

Gənc nəslin hərtərəfli inkişafında və şəxsiyyət kimi formalaşmasında məktəbəqədər müəssisələrin üzərinə daha böyük məsuliyyət düşür. Gələcək cəmiyyətdə yaşayacaq vətəndaşların bir şəxsiyyət kimi formalaşmasının, hərtərəfli inkişafının əsası məktəbəqədər illərdə qoyulur. Bu illərdə uşağın necə tərbiyə olunması, onun sonralar bir vətəndaş kimi formalaşmasını müəyyən edir. Məktəbəqədər müəssisələrdə təlim-tərbiyə işinin yaxşılaşdırılması, uşağın məktəbə hazırlanması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Uşağın bir şəxsiyyət kimi hərtərəfli inkişaf etməsi üçün onun estetik cəhətdən formalaşması, yüksək bədii zövqə və mədəni vərdişlərə yiyələnməsi əsas şərtlərdən biridir. Gənc nəslin tərbiyəsinə xidmət edən estetik tərbiyənin qüvvətli təsir gücünə malik vasitələrindən biri də musiqidir. Bu mühüm məsələ ilə əlaqədar görülən işin əsas ağırlığı uşaq bağçalarının üzərinə düşür.

Uşaqlarda musiqiyə olan marağı vaxtında tərbiyə edib, istiqamətləndirmək üçün uşaq bağçalarında keçirilən musiqi tərbiyəsini düzgün qurmaq və bunu müntəzəm davam etdirmək lazımdır.

Uşaqların tariximizə, milli adət-ənənələrimizə məhəbbət ruhunda tərbiyə edilmələrində musiqinin rolu böyükdür. Musiqi tərbiyəsi uşaqların bədii zövqünün formalaşmasında əhəmiyyətli rola malikdir. Ailə istisna olunarsa, mənəviyyatı zəngin, mədəni səviyyəsi və bədii zövqü yüksək

olan, varlığın, estetik keyfiyyətlərini-musiqini, sənət əsərlərini həssaslıqla qavrayıb, gözəl bədii zövqə yiyələnməyi bacaran şəxsiyyətlər yetişdirilməsi işi məktəbəqədər tərbiyə müəssisələrindən ilk növbədə məktəbəqədər müəssisələri həmin mərhələnin imkanlarından səmərəli istifadə etmək qayğısına qalmalıdırlar. Yüksək zövqlü kamil gənclər yetişdirilməsinin bünövrəsi ailədən başlasa da, sistemli şəkildə bünövrəsi məktəbəqədər müəssisələrdə qoyulur. Məktəbəqədər yaşlı uşaqlar gerçəkliyin musiqi əsərlərində necə əks olunduğunu dərk etdikdə onların gözəllik haqqında təsəvvürləri daha da təkmilləşir.

Məktəbəqədər müəssisələrdə Azərbaycan musiqisi vasitəsilə uşaqların musiqi tərbiyəsinin təşkili xüsusi tədqiqat obyekti kimi diqqəti cəlb etməmişdir. Uşaq bağçalarında çalışan musiqi rəhbərlərinin və tərbiyəçilərin xeyli hissəsi bu vacib məsələnin öhdəsindən nə üçün layiqincə gələ bilmirlər? Nəticədə uşaqlar proqramın tələblərinə müvafiq musiqi savadına yiyələnmirlər. Bunu nəzərə alaraq, biz uşaq bağçalarının bütün qruplarında musiqi tərbiyəsinin təşkili məsələlərinə tədqiqat obyekti kimi baxılmasını və işlənməsini məqsədəuyğun hesab etmişik. Uşaq bağçalarında uşaqların musiqi tərbiyəsinin təşkili məsələlərini aktual hesab edərək tədqiqat mövzusunu "Məktəbəqədər müəssisələrdə uşaqların musiqi tərbiyəsi üzrə işin təşkili" şəklində müəyyənləşdirdik.

Dövlət və özəl uşaq bağçalarında üç mərhələdə eksperiment aparılmışdır. Öyrənilmiş, eləcə də irəli sürülmüş fikirlərlə bağlı əldə olunmuş nəticələr hesablanaraq cədvəl formasına salınmış və ümumiləşdirilmişdir.

Orta ümumtəhsil, pedaqoji təmayüllü orta ixtisas məktəblərində problemlə əlaqədar interaktiv müasir təlim metodları, "Musiqi" fənninin digər fənlərlə və əksinə inteqrasiyanın istifadə xüsusiyyətləri, uşaqlara mənimsəniləcək bilik, bacarıq və vərdişlər təcrübi təlim və eksperimental yolla əsaslandırılmışdır.

"Musiqi" fənninin tədrisi ilə əlaqədar müəllif tərəfindən təqdim edilmiş bilik, bacarıq və vərdişlər sistemini, məsləhət görülmüş fəal təlim metodları və digər müasir təlim metodlarından, inteqrasiya üsullarından araşdırdığımız problemə yaxın digər məşğələlərlə əlaqədar tədqiqatlarda istifadə etmək olar. Belə ki, müasir uşağın psixi inkişafının xüsusiyyətlərinin musiqi incəsənətinin xüsusiyyətlərini musiqi incəsənətinin inkişaf xüsusiyyətləri ilə müqayisə etsək, bir neçə prinsipial müddəalar formalaşdırmaq mümkündür:

– Şəxsiyyətin sosial tələbi haqqındakı psixoloji anlayış, musiqi incəsənətində ictimai faktorun rolu haqqında musiqi – estetik anlayışda olduğu kimi, pedaqoji, psixoloji və musiqi elmlərinin vahidliyini əks etdirir.

– Müasir psixologiya musiqisinin emosional qavranılmasını təfəkkürlə vəhdətlə götürür;

– Emosionallıq və şüurluluğun vəhdəti musiqi incəsənətinin əsasını təşkil edir;

– Uşaq şəxsiyyətinin inkişafında emosiyalar onların həyatında hadisələrin dəyərləndirilməsi kimi büruzə verir.

Musiqidə də müxtəlif emosiyalar ifadə olunurlar. Bu emosiyalar yaradılan əsərdə sənətkarın həyati hadisələrə münasibətini, onun ideya mövqeyini ifadə edirlər.

**Tədqiqatın işlənmə dərəcəsi**: Məktəbəqədər müəssisələrdə aparılan təlim-tərbiyə işlərinin səviyyəsinin yüksəldilməsi, xüsusilə musiqi məşğələlərinin keyfiyyətinin hər vasitə ilə təkmilləşdirilməsi bu gün qarşıda duran əsas vəzifələrdəndir. Bu vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi musiqi məşğələlərinin yeni məzmunda aparılmasını, ona xidmət göstərən əyani və metodik vəsaitlərin hazırlanmasını, musiqi alətləri, habelə texniki vasitələrin gücündən bacarıqla istifadə olunmasını tələb edir.

Məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsi təhsilin ümumi sistemində ilkin pillə olub uşaq şəxsiyyətini formalaşdırmaq, bağça yaşlı uşaqların musiqi tərbiyəsini təkmilləşdirmək kimi mühüm vəzifəni həyata keçirir. Bu vəzifələrin həyata keçirilməsi işində musiqi ən qüdrətli vasitələrdən hesab olunur. Böyük təsir gücünə malik olan musiqi məktəbəqədər yaşlı uşaqların hiss və duyğularına hakim kəsilir, onları gələcək həyata hazırlamaqda möhkəm təməl rolunu oynayır. Bu baxımdan Azərbaycan musiqisinin imkanları daha böyükdür. Uşaqlarda əsasən estetik zövqü yaradan iş musiqi məşğələləridir. Bu eyni zamanda bütün kollektivi nəzərdə tutan təşkiledici təhsildir. Bu təhsil formasının da öz müsbət cəhətləri vardır. Uşaqlar həm tərbiyəçinin, həm də yoldaşlarının göstərdiyini həm görür, həm də eşidir. Belə məşğələlərdə uşaqlarda kollektivçilik, yoldaşlıq və qarşılıqlı əməkdaşlıq hissi yaranır. Bu məşğələlər 3 növdə olur: frontal məşğələlər, ayrı-ayrı qruplarda məşğələ, fərdi məşğələ.

Respublikamızda məktəbəqədər tərbiyə müəssisələrindəki uşaqların musiqi tərbiyəsi sahəsində Y.Kərimov[1], O.Rəcəbov[2], V.Xəlilov[3], J.Qədi-

---

[1] Kərimov Y. Təlim metodları. Bakı, 2009

[2] Rəcəbov O. Qabiliyyətlərin tərbiyə olunması. // Azərbaycan məktəbi. №2. Bakı, 1997, s. 28; Rəcəbov O. Uşaqlar və mahnılar. Bakı, 1985

[3] Xəlilov V. Müəllimin estetik mədəniyyətinin yüksəldilməsi istiqamətləri. Bakı, 1997; Xəlilov V. Uşaqların məktəbə hazırlanması. Bakı, 1977; Xəlilov V. Estetik tərbiyə. Ped. universitet və institutlar üçün proqram. Bakı, 1994

mova[1], T.Kərgərlinskaya[2], S.Quliyev[3], F.Sadıqov[4], İ.Məmmədova[5], Ş.Əliyeva[6], Ə.Ağayev[7], Ə.Qədimbəyova[8], Z.Sədraqızı[9] və başqaları məşğul olmuşlar. Adlarını qeyd etdiyimiz müəlliflərin hər birinin özlərinin elmi və təcrübi problemləri olmuş və onlar məktəbəqədər tərbiyə müəssisələri üçün musiqi proqramları, musiqi müntəxəbatları, elmi məqalə və dissertasiyalar yaratmışlar.

**Tədqiqatın obyekti -** məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsinin təşkili prosesidir.

**Tədqiqatın predmeti -** uşaq bağçalarında uşaqların musiqi tərbiyəsinin inkişafında təlim-tərbiyə işinin məzmun istiqamətləri və xüsusiyyətləri.

**Tədqiqatın məqsədi -** məktəbəqədər müəssisələrdə uşaqların musiqi tərbiyəsinin təşkili prosesini öyrənmək, onların hərtərəfli inkişafında və şəxsiyyət kimi formalaşmasında istifadə olunan yeni təlim texnologiyalarının tətbiqi üzrə işin sistemini müəyyənləşdirməkdir.

Tədqiqatın məqsədi müvəffəqiyyətlə həyata keçirmək və irəli sürülmüş fərziyəni əsaslandırmaq üçün aşağıda göstərilən vəzifələri həll etmək zəruridir:

– musiqi müəllimlərinin professional hazırlığının mahiyyəti və məzmununu müəyyənləşdirmək;

– musiqi müəllimlərinin professional hazırlığının müasir vəziyyətini təhlil etmək;

– problemlə əlaqədar orta ümumtəhsil, pedaqoji təmayüllü orta ixtisas və ali məktəblərdəki vəziyyəti və qabaqcıl iş təcrübəsini öyrənmək;

– interaktiv metodlardan istifadə baxımından orta ümumtəhsil məktəblərində "Musiqi" dərslərinin imkanlarını üzə çıxarmaq.

Musiqi – estetik baxımından musiqi təliminin məqsədi belə müəyyən edilmişdir.

---

[1] Qədimova J. Musiqinin tədrisi metodikası. Bakı, 2007; Qədimova J. Musiqi pedaqogikası: tarixçilik və müasirlik. Bakı, 2012

[2] Kərgərlinskaya T. Musiqi pedaqogikası. Bakı, 2011

[3] Quliyev S. Musiqi və onun tədrisi metodikası. Bakı, 1978

[4] Sadıqov F. Məktəbəqədər tədris müəssisələrində uşaqların musiqi qabiliyyətlərinin inkişafı problemləri. Bakı, 1985

[5] Məmmədova İ. Uşaqların musiqi dünyası. Bakı, 2004

[6] Əliyeva Ş. Məktəbəqədər pedaqogika. Bakı, 2012

[7] Ağayev Ə. Təlim prosesi – ənənə və müasirlik. Bakı, 2006

[8] Qədimbəyova Ə. Uşaq bağçasında əxlaq tərbiyəsi. Bakı, 1969

[9] Sədraqızı Z. Uşaq bağçalarında musiqi məşğələlərinin müntəxəbatı. Bakı, 2005

– Məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafında musiqi məşğələləri üzrə işin səmərəli təşkili.

– Musiqi incəsənəti – sosial hadisə olub, böyüməkdə olan gənc nəslin inkişaf etmiş şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

– Musiqi mədəniyyətinin yaradıcı əsasını klassik musiqi, xalq incəsənət nümunələri və müasir musiqi təşkil edir.

**Tədqiqatın vəzifələri –** Tədqiqatın məqsədinə və fərziyyəyə uyğun olaraq aşağıdakı vəzifələrin həlli vacib sayılır:

- problem baxımından nəzəri və metodik ədəbiyyatı, tərbiyə və təlim proqramlarını nəzərdən keçirib təhlil etmək;
- problemlə əlaqədar uşaq bağçalarında mövcud vəziyyəti aşkara çıxarmaq;
- məktəbəqədər yaşlı uşaqlarda musiqi tərbiyəsi üzrə işin məzmununu təkmilləşdirmək;
- məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsinin forma, vasitə və yollarının – sistemini işləmək.

**Tədqiqatın metodoloji əsası** tədqiqat əsərinin elmi-nəzəri səviyyəsinin yüksək olmasını təmin etmək məqsədilə problemə dair klassiklərin fikirlərinə, uşaq bağçalarında musiqi tərbiyəsinin təşkilinə musiqi, estetik tərbiyəyə dair müvafiq direktiv sənədlərə, müasir pedaqogika və psixologiyanın müddəalarına istinad edilmişdir.

**Tədqiqat metodları** – Qarşıya qoyulan vəzifələrin həlli üçün aşağıdakı tədqiqat metodlarından istifadə olunmuşdur:

**1.Problemlə əlaqədar ədəbiyyatın öyrənilməsi**. Problem baxımından dövlət sənədləri, məktəbəqədər uşaq tərbiyə müəssisələri haqqında qərar və göstərişlər, musiqi proqramları, klassiklərin, görkəmli pedaqoq və psixoloqların əsərləri öyrənilib, təhlil edilmişdir.

**2.Uşaq bağçalarında keçirilən musiqi məşğələlərinin planları və musiqi tərbiyəçilərinin yaradıcılıq fəaliyyəti məhsullarının öyrənilməsi**. Respublikamızın ayrı-ayrı məktəbəqədər tərbiyə müəssisələrində çalışan 10 musiqi rəhbərinin, 10 metodistin, 45 tərbiyəçinin iş planı, əsrimizin əvvəllərindən indiyə kimi uşaq bağçaları üçün hazırlanmış 9 proqram öyrənilib, təhlil edilmişdir.

**3. Müşahidə.** Problem baxımından mövcud vəziyyəti öyrənmək məqsədilə 55 musiqi məşğələlərində uşaqların və musiqi rəhbərlərinin fəaliyyəti müşahidə olunmuşdur.

**4. Pedaqoji müsahibə**. Musiqi məşğələləri təşkili zamanı əldə edilmiş faktları, nəticə və məlumatları tutuşdurmaq və problemə münasibəti

öyrənmək məqsədilə bir çox məktəbəqədər müəssisənin rəhbərləri, musiqi rəhbərləri, tərbiyəçiləri, valideynlər və uşaqlarla şifahi, 10-dan artıq musiqi rəhbəri yazılı və anket sorğusu ilə müsahibə aparılmışdır.

**5. Pedaqoji eksperiment**. Müşahidədən, müsahibədən, nəzəri təhlildən istifadə prosesində açılmayan bəzi müddəaların və mülahizələrin düzgünlüyünü yoxlamaq, irəli sürülmüş fərziyyənin doğruluğunu sübuta yetirmək üçün pedaqoji eksperiment qoyulmuşdur. Eksperiment müəyyənedici, öyrədici, yoxlayıcı olmaqla üç mərhələdə aparılmışdır. Müəyyənedici eksperiment Bakının 2011-2013-cü illərdə Nəsimi rayonu 18 №-li uşaq bağçası, 127 №-li körpələr evi, Yasamal rayonu 184 №-li bağça, Abşeron rayonu Masazır kəndi "Şən Yuva" uşaq bağçası, "Qərənfil", Bakı şəhər "Baby on board" uşaq bağçası, Nəsimi rayonu körpələr evi, Sumqayıt "İnci çiçəyi" 55 №-li körpələr evi, uşaq bağçalarında müəyyənedici eksperiment keçirilmiş, vəziyyət dəqiq aşkar olunmuşdur. Öyrədici eksperiment prosesində 7 müəssisədə bizim hazırladığımız sistem tətbiq olunmuşdur. Bu sistemlə işin nəticələri 2013-cü ildə öyrənilmişdir (yoxlanmışdır). Tədqiqata 300-dən artıq uşaq 10-a qədər musiqi rəhbəri və tərbiyəçi cəlb edilmişdir.

Eksperimentin nəticələri 2011-2013-cü illərdə 7 uşaq bağçasında sınaqdan keçirilmiş, etibarlılığı sübut olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə olaraq elmi araşdırmalara tədqiqat predmeti kimi müasir pedaqoji texnologiyalara istinad edilmişdir. Musiqi tərbiyəsinin təşkili məsələlərinin araşdırılmasında ənənəvi və müasir uşaq bağçalarında mövcud vəziyyətin müqayisəli təhlili əsas götürülmüşdür.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların musiqi tərbiyəsinin təşkili onlara təqdim olunan musiqilərin məzmunun, ifa tərzinin dəqiqləşdirilməsinə, yeni ifa tərzlərinin işlənməsinə istiqamət vermişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** – məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsinin təşkili prosesində yeni forma, metod və texnologiyaları təhlil etmək, ümumiləşdirmək, onlardan istifadə etmək musiqi tərbiyəsi nəzəriyyəsinin təkmilləşdirilməsini təmin etmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Təklif olunan iş sistemi məktəbəqədər müəssisələrdə uşaqların musiqi tərbiyəsinin təşkili prosesində musiqi müəllimlərinə öz fəaliyyətlərini səmərəli qurmaqda kömək göstərəcəkdir. Əsərdən pedaqoji təmayüllü ali məktəblərdə, pedaqoji kolleclərin məktəbəqədər tərbiyə fakültəsində dərs deyən müəllimlər faydalana biləcəklər.

**Müdafiəyə təqdim olunan müddəalar**:

1. – Məktəbəqədər təhsilin inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsi.

2. – Azərbaycanda məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsinin inkişafının sosial, iqtisadi, mədəni zəminlə şərtləndirilməsi.

3. – məktəbəqədər müəssisələrdə uşaqların musiqi tərbiyəsinin Azərbaycan musiqisi vasitəsilə inkişaf etdirilməsinin elmi-pedaqoji əsasları üzərində qurulmasının sistemləşdirilməsi.

**Tədqiqatın aprobasiyası –**Tədqiqatın mövzusu ilə əlaqədar müəllif çıxışlar etmiş və məqalələr çap etdirmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 2 fəsil, 5 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı, tədqiqatın obyekti, predmeti, fərziyyəsi, vəzifələri, metodoloji əsası, metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti öz əksini tapmış, müdafiəyə təqdim edilən müddəalar, alınan nəticələrin elmi və praktik etibarlığı və aprobasiyası elmi şəkildə izah olunmuşdur.

Dissertasiyanın **I fəsli "Məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsinin təşkili pedaqoji problem kimi"** adlanır və 3 yarımfəsildən ibarətdir.

**"Uşağın məktəbə hazırlanmasının ümumi pedaqoji əsasları"** adlanan **I yarımfəsildə** uşağın məktəbə hazırlığının professor və alimlər tərəfindən yazılmış əsərlərinin təhlil üzrə iş aparılmışdır. Musiqi tərbiyəsinin əsas məqsədi musiqi mədəniyyətinə malik insan qruplarından asılı olmayaraq bütün bağça uşaqlarına aid edilə bilər.

Hamıya məlumdur ki, musiqi insanda müsbət hisslər doğurur. Bu hisslər uşağın fiziki, əqli, əxlaqi tərbiyəsi sahəsində qarşıda duran vəzifələrin həyata keçirilməsinə kömək göstərir. Bizim doğma Vətənə, adamlara məhəbbətimiz, insanlar arasındakı xoş və səmimi münasibətlər, xalqın xoşbəxtlik və səadəti üçün göstərilən cəhd bu cəmiyyətin möhkəm ideya əsasını təşkil edir. Bu keyfiyyətləri aşağıdakı kimi göstərmək mümkündür:

| **Siyasi anlayışlar** | **Hüquqi anlayışlar** | **Əxlaqi anlayışlar** |
|---|---|---|
| 1. Azərbaycan Dövlət atributlarına hörmət<br>2. Dövlət rəhbərinə hörmət<br>3. Azərbaycan müstəqilliyinə hörmət<br>4. Azərbaycan Konstitusiyasına hörmət<br>5. Azərbaycan ordusuna, əsgərinə hörmət | 1. Müstəqilliyi qorumaq<br>2. Ana dilini qorumaq<br>3. Azad vətəndaş olmaq<br>4. Cəmiyyətdə bərabərlik hüququnu qorumaq | 1. Vətənə məhəbbət<br>2. Valideynlərə məhəbbət<br>3. Dostluq<br>4. Düzlük<br>5. Ləyaqətlilik<br>6. Humanistlik |

**II yarımfəsil "Məktəbəqədər yaşlı uşaqların bağçada musiqi tərbiyəsinin təşkili" adlanır.** Yetişməkdə olan gənc nəslin şəxsiyyət kimi

formalaşmasında estetik tərbiyənin çox böyük əhəmiyyəti vardır. Estetik tərbiyənin əsas məqsədi uşaqları incəsənətə, onun növləri olan ədəbiyyat, təsviri incəsənət, musiqi, teatr və s. bədii yaradıcılıqla tanış etməkdir. Uşaqların estetik tərbiyəsi isə məktəbəqədər yaş dövründən başlayır.

Uşaqların musiqini sevmələri, onların yaradıcılıq qabiliyyətlərini daha da inkişaf etdirmək üçün dövlətimiz bağça və başqa müəssisələrdə musiqiyə geniş yer vermişdir. Musiqini duymaq, qavramaq ana laylasından başlanır.

Uşaq bağçasında musiqi tərbiyəsi uşaqların hərtərəfli və harmonik tərbiyəsi qarşısında aşağıdakı vəzifələri qoyur:

| **Musiqi tərbiyəsi ilə əlaqədar musiqi müəlliminin qarşısında duran vəzifələr** | **Nəticədə** |
|---|---|
| 1. Musiqiyə məhəbbət və maraq hissini tərbiyələndirmək.<br>2. Uşaqların musiqi biliyini zənginləşdirmək<br>3. Uşaqları sadə musiqi alətləri ilə tanış etmək<br>4. Musiqi əsərlərinin sadə, təbii ifa olunmasına nail olmaq<br>5. Musiqinin yaranmasına kömək etmək<br>6. Uşaqların yaradıcılıq fəaliyyətini inkişaf etdirmək. | 1. Musiqini duyma, eşitməni inkişaf etdirməklə həll olunur<br>2. Uşaqlar müxtəlif musiqi əsərləri ilə tanış olur<br>3. Musiqi dinləmə, oxuma, musiqili ritmik hərəkətlər, musiqi vərdişləri inkişaf edir<br>4. Uşaqların musiqi alətlərində çalma sahəsində vərdişlərini inkişaf edir<br>5. Musiqi haqqında təsəvvürləri aydınlaşır.<br>6. Musiqi fəaliyyəti növləri vasitəsilə |

Uşaqlarda əsasən estetik zövqü yaradan iş musiqi məşğələləridir. Bu eyni zamanda bütün kollektivi nəzərdə tutan təşkiledici təhsildir. Bu təhsil formasının da öz müsbət cəhətləri vardır. Uşaqlar həm tərbiyəçinin, həm də yoldaşlarının göstərdiyini həm görür, həm də eşidir. Belə məşğələlərdə uşaqlarda kollektivçilik, yoldaşlıq və qarşılıqlı əməkdaşlıq hissi yaranır. Bu dərslər 3 növdə olur: frontal məşğələlər, ayrı-ayrı qruplarda məşğələ, fərdi məşğələ.

**I fəslin üçüncü yarımfəsli "Problemin proqramlarda qoyuluşu və yeni təlim strategiyası"** adlanır. Məlumdur ki, dünyanın müxtəlif ölkələrində musiqi vasitəsilə tərbiyə sahəsində çalışan alimlərin, pedaqoqların və ümumiyyətlə, musiqi pedaqogikası sahəsində çalışan mütəxəssislərin işlərini, ideyalarını, fikirlərini, tədqiqatlarını öyrənmək, bunların arasında qarşılıqlı əlaqə yaratmaq üçün ilk dəfə 1934-cü ildə musiqi vasitəsilə tərbiyə problemləri üzrə Beynəlxalq cəmiyyət təşkil edilmişdir. Mərkəzi Çexoslovakiyanın paytaxtı olan bu cəmiyyətin ilk konqresi 1936-cı ildə məhz Praqada keçirilmişdir. Sonrakı illərdə həmin cəmiyyət bu cür beynəlxalq görüşləri dünyanın müxtəlif şəhərlərində, o cümlədən 1937-ci

ildə Parisdə, 1938-ci ildə İsveçrənin Sürix, Bern və Baden şəhərlərində keçirir. 1939-1945-ci illərdəki müharibə bu görüşlərə fasilə vermək məcburiyyətini yaradır. Yalnız 1953-cü ildə YUNESKO-nun tərkibindəki Beynəlxalq Musiqi Şurasının təşəbbüsü ilə Brüsseldə musiqi vasitəsilə tərbiyə problemlərinə həsr olunmuş beynəlxalq konfrans keçirilir. 1953-cü ildən başlayaraq YUNESKO-nun tərkibində fəaliyyət göstərən Beynəlxalq Musiqi Şurası müntəzəm olaraq vaxtaşırı dünyanın müxtəlif ölkələrində musiqi vasitəsilə tərbiyə problemlərinə həsr olunmuş beynəlxalq konfranslarını keçirir. İndiyə qədər həmin konfranslar 1955-ci ildə Lindauda (Almaniya), Sürixdə (İsveçrə), 1958-ci ildə Hopenhagen (Danimarka), 1961-ci ildə Venada (Avstriya), 1963-cü ildə Tokioda (Yaponiya), 1964-cü ildə Budapeştdə (Macarıstan), 1966-cı ildə İnterloxendə (ABŞ), 1968-ci ildə Dijonda (Fransa), 1970-ci ildə Moskvada və eləcə də bir çox ölkələrdə keçirilmişdir.Bu konfranslarda "Uşaqların və böyüklərin təhsilində musiqinin rolu və yeri", "Musiqi təhsili sahəsində müqayisəli tədqiqatlar", "Musiqi aləmində və musiqi təhsilində Qərb və Şərq", "XX əsrin musiqisi və musiqi təhsili", "Keçmiş və müasir müxtəlif mədəniyyətlərin dərk edilməsinin inkişafında musiqi tərbiyyəsinin rolu", "Müasir dövrdə texniki vasitələrin musiqi tərbiyəsinə təsiri" və digər bu kimi aktual problemlər müzakirə olunmuşdur.

Musiqi tərbiyəsi problemləri ilə bağlı dünyanın ən görkəmli alimləri, o cümlədən bu sahədə K. Xofman (Almaniya), K. Toykov (Bolqarıstan), Y. Budik (Çexoslovakiya), Q. Qoldenbaum (Fransa), M. Pşixodzinskaya, M. Borquna və başqalarının bir sıra maraqlı tədiqatları vardır. Keçmiş SSRİ məkanında da müxtəlif yaşlı uşaqların musiqi inkişafı, musiqi vasitəsilə tərbiyəsi ilə bağlı O.A. Apraksina, B.V. Asafyev, N.A.Vetlugina, E.P.Kostina, A.V.Keneman, V.A.Suxomlinski, B.M.Teplov, N. N. Dobrovolskaya, D.B. Kabalevski, M.A. Rumer, Y. B. Əliyev, V. N. Şatskaya uzun illər boyu tədqiqatlar aparmış və bunun nəticəsində musiqi tədrisi və musiqi vasitəsilə tərbiyə problemlərinə həsr olunmuş bir sıra samballı əsərlər yazmışlar.

Azərbaycan Respublikasında 1941-ci ildən 1998-ci ilə qədər olan dövrlərdə məktəbəqədər tərbiyə ocaqları üçün çap olunmuş musiqi üzrə proqramlar təhlil olunur. Beləliklə, uşaq bağçalarının “Musiqi” proqramları ilə əlaqədar aparılan elmi araşdırmalar aşağıdakı nəticələrə gəlmək imkanı vermişdir:

1) 1941, 1942, 1948, 1965-ci illərdə məktəbəqədər tərbiyə müəssisələri üçün tərtib olunmuş musiqi proqramlarında musiqi nümunələrinin və

uşaqların yaş xüsusiyyətlərini nəzərə almadan sistemsiz yerləşdiyini nəzərə alaraq onların ətraflı araşdırılmasını lazım bildik.

2) 1970, 1985, 1998-ci illərin uşaq bağçaları üçün "Musiqi" proqramları həm formaca, həm də məzmunca o dövrün tələblərinə cavab verirdi.

3) Bu dövrlər ərzində "Musiqi" proqramlarının məzmununa uyğun "Not müntəxəbatları"nın və "Fono müntəxabatları"nın olmaması musiqi tərbiyəçiləri tərəfindən bu məşğələlərin keyfiyyətli keçməsinə maneçilik göstərirdi.

4) Araşdırdığımız proqramlarda təkrarlara və uşaqların yaş xüsusiyyətlərinə uyğun gəlməyən musiqi nümunələrinə rast olunur.

5) 1985 və 1998-ci illərin "Musiqi" proqramlarında IV rübə aid musiqi materiallarının verilməməsi məşğələ zamanı musiqi tərbiyəçiləri üçün müəyyən çətinliklər yaradırdı.

Məlum olduğu kimi tərbiyə, təhsil və təlimin məzmun, forma və metodlarını öyrənən çoxsahəli pedaqogika elmi aşağıdakı elm sahələrinə bölünür: 1. Ümumi pedaqogika. 2. Yaş pedaqogikası. 3. Əlahiddə pedaqogika. 4. Müqayisəli pedaqogika. 5. Xüsusi metodikalar. 6. Pedaqogika tarixi.

Musiqi pedaqogikasının öyrəndiyi sahələrdən biri də tərbiyə problemləridir. Başqa sözlə desək musiqinin imkanlarından, təsir gücündən, bədii ifadə vasitələrindən istifadə edərək musiqi vasitəsilə uşaqların həm də tərbiyəsinə, daha dəqiq desək bədii tərbiyəsinə nail olmaqdır. Bu tərbiyə isə estetik tərbiyənin tərkib hissələrindən biri olan tərbiyədir.

Bütün dövrlərdə uşaqların məktəbə hazırlanması məktəbəqədər müəssisələrin başlıca vəzifəsi olmuşdur və bu məsələlər həmişə proqramda öz əksini tapmışdır. Zaman-zaman bu məsələlər qaydaya düşsə də hələ müəyyən çatışmazlıqlar yenə də var.

Azərbaycanda musiqi tədrisi və eləcə də musiqi tərbiyəsi sahəsində tədqiqatlar, proqram və dərsliklərin yazılmasına, elmi, metodiki vəsaitlərin hazırlanmasına 1960-cı ildən başlanılmışdır. Təxminən 40 ilə yaxın müddətdə Azərbaycan məktəbəqədər təhsil müəssisələri üçün "Musiqi" dərslikləri, proqramları, metodiki vəsaitlər yazılmış, musiqi tədrisi, musiqi – estetik tərbiyə sahəsində çalışan xeyli tədqiqatçılar namizədlik və doktorluq dissertasiyaları yazıb müdafiə etmişlər. Bunlara misal olaraq Y.Kərimov, O.Rəcəbov, Ə.Ağayev, V.Xəlilov, F.Sadıqov, N.Məlikməmmədov, Z.Abdullayev, J.Qədimova, M.Dadaşova, F.Rzayeva, A.Rüstəmov, R.Əliyeva, S.Əsgərova, Z.Mayılova, N.Əliyeva, Z.Şədraqızı, S.K.Almuradova və bir çox başqalarının adlarını çəkmək istərdik. Adlarını çəkdiyimiz müəlliflərin tədqiqatların içərisində O.Rəcəbovun "Azərbaycan ümumtəhsil məktəbləri şagirdlərinin musiqi mədəniyyətinin

formalaşdırılması problemləri", S.Əsgərovanın "Azərbaycan ümumtəhsil məktəbləri musiqi müəlliminin professional hazırlığının elmi – pedaqoji əsasları", V.Xəlilovun "İbtidai siniflərdə Azərbaycan xalq yaradıcılığını nümunələrinin öyrədilməsi estetik tərbiyə vasitəsi kimi", F.Sadıqovun "Uşaqlarda bədii yaradıcılıq qabiliyyətlərin formalaşdırılması üzrə işin nəzəriyyəsi və praktikası", "Azərbaycan ümumtəhsil məktəblərində estetik tərbiyənin nəzəriyyəsi və təcrübəsi", N.Məlikməmmədovun "Azərbaycan xalq musiqisi şagirdlərdə musiqi estetik tərbiyə qabiliyyətlərin tərbiyə vasitəsi kimi", "Müasir dövr Azərbaycanda musiqi tədrisi və tərbiyəsinin problemləri və onların həlli yolları" doktorluq dissertasiyası, T.Bağırovanın "Azərbaycanda uşaq musiqi məktəblərinin yaranması və inkişafı", A.Rüstəmovun "Azərbaycan aşıq yaradıcılığı yeniyetmələrin musiqi inkişafında vasitə kimi" adlı əsərləri xüsusilə qeyd etmək istərdik. Pedaqoji elmlər doktoru O.Rəcəbov Azərbaycan musiqi pedaqogikasında öz yeri, öz sözü olan mütəxəssislərdəndir. Onun respublikamızın musiqi tərbiyəsi sahəsində gördüyü işlərdən çox deyilmiş və çox yazılmışdır. Onun musiqi tədrisi, musiqi tərbiyəsinə aid tədris vəsaitləri, musiqi proqramı, elmi, metodiki məqalələri bu gün də öz faydasını verməkdədir. O.Rəcəbovun son samballı elmi – tədqiqat işi "Azərbaycan ümumtəhsil məktəbləri şagirdlərinin musiqi mədəniyyətinin formalaşdırılmasının problemləri"dir.

Azərbaycan Respublikasının Təhsil haqqında Qanununda deyilir: "Məktəbəqədər müəssisələrdə tərbiyə işinin məzmunu müəyyən olunarkən ümumbəşəri dəyərlərə istinad olunmaqla milli zəmin əsas götürülür. Xüsusi metodika əsasında xarici dillərin öyrədilməsinə başlanılır. Azərbaycan dilinin öyrədilməsinə üstünlük verilir. Nadir istedada malik uşaqlar üçün xüsusi bağçalar və ya qruplar açılır"[1]. Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim işləri sərhədi müəyyən yaş dövrü ilə məhdudlaşan qruplar üzrə təşkil olunur.

Məktəbəqədər təhsilin dövlət standartı və proqramı "Təhsil haqqında Azərbaycan Respublikası Qanunun 6.3 maddəsinə uyğun hazırlanmışdır. Bu qanuna əsasən Respublikada fəaliyyət göstərən bütün məktəbəqədər təhsil müəssisələri bu vəzifələrin yerinə yetirilməsi və tədris metodiki rəhbərliyin tələblərinə əməl etməyə borcludur.

Məktəbəqədər təhsilin dövlət standartı və proqramı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyul tarixli 137 nömrəli

[1] Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı, 2009, s.6

qərarı ilə təsdiq edilmişdir.

**II fəsil "Məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsinin təşkili üzrə aparılan işlər"** adlanır. **2.1."Məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsinin təşkili"** yarımfəslində Azərbaycan Respublikasında uğurla həyata keçirilən müstəqil dövlət quruculuğu prosesi digər sahələrdə olduğu kimi, məktəbəqədər müəssisələrdə də təlim-tərbiyənin də əsaslı şəkildə yeniləşməsini zəruri edən səbəblər göstərilir.

Müstəqillik əldə etmiş respublikamızda yetişməkdə olan gənc nəslin intellekt kimi formalaşmasında məktəbəqədər müəssisələrin də üzərinə böyük məsuliyyət düşür.

Müasir dövrdə məktəbəqədər müəssisələrin qarşısında duran vəzifələrdən biri də uşaqların musiqi və yaradıcı qabiliyyətlərini inkişaf etdirməkdən ibarətdir. Yeni cəmiyyət, humanist və demokratik meyllərin güclənməsi tələb edir ki, məktəbəqədər müəssisələrdə tərbiyə alan uşaqlar gələcəkdə müasir dövrün tələblərinə cavab verən mütəxəssislər kimi formalaşsınlar və bu cəmiyyətdə yaşayıb-yaratmağa qabil şəxsiyyət kimi yetişsinlər. Odur ki, məktəbəqədər müəssisələrin tərbiyəçiləri təlim-tərbiyə prosesində uşaqların məktəbə hazırlanması işinə xüsusi diqqət yetirməli, onlarda müşahidə aparmaq, müqayisə etmək, ümumiləşdirmə aparmaq, mühakimə yürütmək, nəticə çıxarmaq bacarığı formalaşdırmalıdır. Məktəbəqədər ictimai tərbiyə uşaqların şəxsiyyətinin formalaşmasına, onların hərtərəfli tərbiyəsinə, inkişafına və məktəbə hazırlanmasına xidmət etməlidir.

Uşaqların estetik inkişafını təmin etmək üçün aşağıdakı strategiyalara istinad edilməsi məqsədəmüvafiqdir:

- yaradıcılığa həvəsləndirən müvafiq mühitin yaradılması;
- rəqs, musiqi, rəsm, yapma və s. kimi müxtəlif incəsənət növlərindən istifadə edilməsi;
- qiymətləndirmə bacarığının yaradılması;
- uşaqların incəsənət nümunələri vasitəsilə özünü ifadə etməyə həvəsləndirilməsi;
- uşaqların fəal şəkildə öyrənməsi, təsəvvür etməsi və yaradıcılıq fəaliyyəti göstərməsi üçün qrup otağında şəraitin yaradılması;
- yaradıcı düşünməni və özünüifadəni asanlaşdırmaq üçün musiqi rəhbərinin uşaqlarla interaktiv fəaliyyətinin yaradılması;
- estetik inkişafın təmin edilməsi üçün ailələrin maarifləndirilməsi.

**II fəslin ikinci yarımfəsli "Məktəbəqədər musiqi tərbiyəsində yeni pedaqoji texnologiyaların təşkili"** adlanır. Kiçikyaşlı uşaqların musiqi tərbiyəsi ilə əlaqədar 2011-2013-cü illərdə Bakının 18, 184, 127

№li Sumqayıtın 55, № li Masazırın uşaq bağçalarında eksperimentlər aparılmışdır. Eksperimentlər üç mərhələdə eksperimental və kontrol qruplarda kiçikyaşlı uşaqların musiqi bilikləri yoxlanılmışdır. 2-ci öyrədici mərhələdə eksperimental qruplarda tədqiq olunan problemlə əlaqədar müxtəlif müasir təlim üsullarından istifadə olunmuşdur. 3-cü yoxlayıcı mərhələdə eksperimental və kontrol qruplarda tədqiq etdiyimiz problemin vəziyyəti ilin sonunda yoxlanılmışdır.

Musiqi vasitəsilə ilə kiçikyaşlı uşaqların musiqi tərbiyəsi ilə əlaqədar 2011-2013-cü illərdə apardığımız eksperimentləri və bu eksperimentlərin nəticələrini nəzərdən keçirək.

Nəsimi rayonu 18 №-li körpələr evi, uşaq bağçasının musiqi rəhbərləri ilə uşaqların musiqi məşğələlərində musiqi tərbiyəsi ilə əlaqədar apardığımız eksperimentlər (2011-2013-cü illərdə ) çox maraqlı nəticələr vermişdir. Belə ki, uşaqların əxlaqi keyfiyyətlərinin musiqi vasitəsi ilə tərbiyəsinin səviyyəsinin yoxlamaq üçün eksperimental və kontrol olmaqla iki qrup ayrılmışdı. Eksperimental uşaqların musiqi tərbiyəsinin inkişaf etdirilməsi mahnı oxuma, musiqi dinləmə, impravizəetmə, musiqi əsərlərinin səhnələşdirilməsi, ritmik hərəkətlər zamanı sadə, uşaqlarının özlərinin bilgilərinə əsaslanaraq maraqlı və əyani vəsaitlərdən istifadə etməklə, ilboyu mövzulara uyğun olaraq musiqi rəhbərləri tərəfindən uşaqlara çatdırılır. Kontrol qruplarda isə uşaqlar ancaq mahnı oxuma, musiqi dinləmə və musiqiyə dair biliklərə yiyələnmə prosesində iştirak edirlər. Eksperimentin nəticəsi eksperimental və kontrol qruplarda aşağıdakı kimi olmuşdur.

| **Qruplar və uşaqların sayı** | **Eksperimentə qədər** | | | | **Eksperimentdən sonra** | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Kiçik qrup | Orta qrup | Böyük qrup | Məktəbəqədər hazırlıq | Kiçik qrup | Orta qrup | Böyük qrup | Məktəbəqədər hazırlıq |
| | 21uşaq | 20uşaq | 20uşaq | 20uşaq | 21uşaq | 20uşaq | 20uşaq | 20uşaq |
| **Eksperimental** | 8uşaq (32%) | 10uşaq (40%) | 14uşaq (56%) | 15uşaq (60%) | 15uşaq (60%) | 18uşaq (72%) | 20uşaq (80%) | 22uşaq (88%) |
| **Kontrol** | 7uşaq (28%) | 10uşaq (40%) | 11uşaq (44%) | 10uşaq (40%) | 10uşaq (40%) | 11uşaq (44%) | 14uşaq (56%) | 15uşaq (60%) |

Eksperimentdən məlum olmuşdur ki, eksperimental qruplarda musiqi tərbiyəsi ilə məqsədyönlü iş aparıldığından buradakı uşaqların bu keyfiyyətlərinin formalaşması kontrol qruplardakı uşaqlardan daha fəal olmuşdur. Bu cür eksperimentlər Bakının 127, 184 №-li bağçalarının böyük və məktəbəhazırlıq qrupları ilə də aparılmış və alınan nəticələr təxminən eyni

olmuşdur. "Musiqi" fənninin mövzularına uyğun olaraq musiqi rəhbəri tərəfindən mahnı oxuma, musiqi dinləmə və musiqi biliklərinin mənimsəmə prosesində kiçikyaşlı uşaqlara aşılanır.

Kontrol qrupda isə yalnız proqramın materialı öyrədilir. İlin axırında aparılan eksperimentin nəticəsi aşağıdakı kimi olmuşdur:

| Qruplar və uşaqların sayı | Eksperimentə qədər | | | | Eksperimentdən sonra | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Kiçik qrup | Orta qrup | Böyük qrup | Məktəbəqədər hazırlıq | Kiçik qrup | Orta qrup | Böyük qrup | Məktəbəqədər hazırlıq |
| | 21uşaq | 20uşaq | 20uşaq | 20uşaq | 21uşaq | 20uşaq | 20uşaq | 20uşaq |
| **Eksperi-mental** | 12uşaq (40%) | 11uşaq (36.6%) | 12uşaq (40%) | 13uşaq (43.3%) | 14uşaq (70%) | 17uşaq (90%) | 16uşaq (80%) | 18uşaq (90%) |
| **Kontrol** | 10uşaq (33.3%) | 11uşaq (36.6%) | 11uşaq (36.6%) | 12uşaq (40%) | 12uşaq (40%) | 13uşaq (43.3%) | 12uşaq (40%) | 14uşaq (46.6%) |

Eksperimentdən əvvəl eksperimental və kontrol qruplarda musiqi tərbiyəsi səviyyəsi eksperimental qruplardan aşağıda olduğu cədvəldən aydın görünür. Lakin ilboyu eksperimental qruplarda tədqiq olunan problemə uyğun musiqi rəhbərinin müntəzəm və məqsədyönlü işi nəticəsində alınan nəticə eksperimental qrupun xeyrinə nəzərə çatacaq dərəcədə dəyişdiyi məlum olur.

Yəni musiqi rəhbərinin musiqi tədrisi prosesində, problemlə əlaqədar kiçik yaşlı uşaqlara aşıladığı bilik, bacarıq və vərdişlər eksperimental qruplarda kontrol qruplardan çox fərqlənir. Eksperimental qruplardakı uşaqların musiqi duyumu, zövqü və ifası layiqdir.

Aparılan bu eksperimentlərin nəticəsi sübut edir ki, kiçikyaşlı uşaqlarda musiqi tərbiyəsinin formalaşmasında bilik, bacarıq və vərdişlərin aşılanması ilə bitmiş hesab etməlidir. Yəni aşılanan bilik, bacarıq və vərdişlər, eyni zamanda tərbiyəvi xarakter daşımalı təlim və tərbiyənin kompleks şəkildə kiçikyaşlı uşaqlara təsiri onların bir vətəndaş, şəxsiyyət kimim formalaşmasına kömək göstərməlidir. Bu prosesdə sözsüz ki, musiqinin rolu, emosional təsir gücü, məzmunun tədqiq olunan problemin daha asan həyata keçməsinə səbəb ola bilər.

Eksperimental materialın əldə edilməsi metodlarından biri də iki mərhələdə həyata keçirilən tələbələr ilə müəllimlərin anket sorğusunda əsaslanmışdır. Anketlərin ilkin mərhələdə tərtib olunmasında 20 nəfər iştirak etmişdilər: ADPU-nun tələbələri və 1 ildən 29 ilə qədər iş təcrübəsi olan uşaq bağçalarının rəhbərləri Anketlərin ikinci (başlıca) mərhələdə tərtib olunmasında 10 nəfər iştirak etmişdir: bağça tərbiyəçi və metodistləri. Əgər birinci halda anketlərin doldurulması onun iştirakçıları üçün ev

tapşırığı kimi çıxış edirsə, anketlərin başlıca mərhələdə doldurulması ədəbi mənbələrdən istifadə etməməklə eksperimentatorun iştirakı ilə həyata keçirilmiş olur. Birinci halda olduğu kimi bu halda da anketlərin anonimliyinə riayət olunmuşdur.

Formalaşdırıcı metodikanın işlənib hazırlanması zamanı biz musiqi təəssüratı, biliklər və onların yeni vəziyyətlərdə adekvatlı tərzdə istifadəsinin genişləndirilməsinə şərait yaradan problemli tapşırıqların tətbiqi zəruriyyətini də nəzərə almışıq.

Təsdiqedici eksperimentdə 60 uşaq – 18 №-li uşaq bağçasının 30 uşağı və Bakı şəhərinin 184 №-li bağçasının eyni sayda olan uşaqları. Uşaqlar üç tapşırığı yerinə yetirmişdirlər. Onlardan birincisi uşaqlarda musiqi fəaliyyətinə olan marağın aşkar olunmasına yönəldilmiş söhbətlər, sevimli nəğmənin çoxluq təşkil etməsi və musiqi fəaliyyətinin müxtəlif növlərinə üstünlük vermək müəyyən xarakterə malik olmuşdur. İkinci tapşırıqda isə uşaqlar müxtəlif kontlığa (kontrastlı, cüzi kontrastlı və qeyri-kontrastlı) malik olan musiqi pyeslərini təhlil etmiş, sonra isə cüt müqayisədə ən çox bəyənilən pyesləri seçərək, öz seçimlərinin əsaslandırmağa çalışmışdılar. Üçüncü tapşırıq uşaqların ifasının "yaxşı", "bir o qədər də yaxşı olmayan" və "pis" verbal dəyərləndirməyə müvafiq olaraq "3", "2" və "1" rəqəmli kartların köməyi ilə ballarda ölçülməsinin əhatə etmişdir. Burada uşaqlar öz yoldaşlarının ifasının keyfiyyətini onlar üçün yaradılmış oyun vəziyyətində dəyərləndirmişdirlər. Uşaqların cavablarının keyfiyyət üzrə təhlilindən emosional – dəyərləndirici münasibətlərin formalaşdırılmasının dörd dərəcələrinin işlənib hazırlanmış göstəricilərinin əsasında bizim tərəfimizdən hər iki qrupda eyni aşağı səviyyəli ilkin dərəcəni göstərən məlumatlar əldə olunmuşdur. Tədqiqatlar uşaqlarda musiqinin təhlili ilə dəyərləndirilməsi və eləcə də musiqi biliklərinin ifası üçün zəruri hesab edilən dəyərləndirici təhlilin üsullarını zəif tərzdə mənimsənilməsi, musiqi dəyərləndirməsinin keyfiyyətinin aşağı səviyyəsinin mövcud olmadığını müəyyən etmişdir.

Formalaşdırıcı eksperiment elə bir tərzdə qurulmuşdur ki, əsas kimi götürülən musiqi dəyərləndirməsinin formalaşdırılması yolları tədris prosesinin açıq-aydın şəkildə dövrləşdirilməsinə təkan vermişdir. Üç tapşırığa uyğun olan musiqi tərbiyəsi üzrə proqramlar də həmçinin üç tədris mərhələsinə malik olmuşdur, bu isə öz növbəsində proqramlı repertuarın mənimsənilməsində və onun tədqiqatla bağlı tapşırıqların həlli üçün istifadəsində müəyyən əlverişliliyin meydana çıxmasına təkan vermişdir.

Eksperimental repertuar kimi böyük və yaradıcılıq qrupu üçün "Uşaq bağçasında musiqi" məcmuəsində musiqi əsərləri tətbiq olunmuşdur.

Eksperimental və adi tədris proqramının keçirilməsindən sonra aparılmış yekun nəticə eksperimental və nəzarət qrupundakı uşaqların musiqiyə və ifaya olan emosional – dəyərləndirici münasibətin formalaşdırmasının müxtəlif dərəcəsinin də aşkar etmişdir. Qarşıya qoyulmuş məqsədlərin realizəsi üçün təsdiqləyici eksperimentin şərt və metodikalarından istifadə olunmuşdur. Uşaqlardakı emosional – dəyərləndirici münasibətin inkişaf etdirilməsi dərəcəsinin dəyişiklərinin cədvəldə göstərilmiş müqayisəli məlumatlar da sübuta yetirmişdilər.

Eksperimental və nəzarət qrupun uşaqlarında musiqi dəyərləndirməsinin formalaşma dərəcəsi: (%-lə ifadə olunan təsdiqedici və nəzarət kəsiyi).

| **Dərəcələr** | **Musiqinin dəyərləndirilməsi** | | | | **İfanın dəyərləndirilməsi** | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **Təsdiqedici kəsik** | | **Nəzarət kəsiyi** | | **Təsdiqedici kəsik** | | **Nəzarət kəsiyi** | |
| | Eksp. qrup | Nəzarət qrupu | Eksp. qrup | Nəzarət qrupu | Eksp. qrup | Nəzarət qrupu | Eksp. qrup | Nəzarət qrupu |
| Yüksək | - | - | 76.7 | 6.7 | - | - | 80.0 | 6.7 |
| Orta | 3.3 | 3.3 | 16.6 | 40.0 | 20.0 | 26.7 | 20.0 | 40.0 |
| Aşağı | 76.6 | 80.0 | 6.7 | 50.0 | 80.0 | 73.3 | - | 53.3 |
| Çox aşağı | 20.0 | 16.7 | - | 3.3 | - | - | - | - |

Tədqiqatın sonunda əldə olunan nəticələrin təhlili isə eksperimental qrupun həmyaşıdların musiqi və ifasına olan emosional – dəyərləndirici münasibətinin formalaşdırılması dərəcəsində nəzarət qrupunun üzərində üstünlük təşkil etməsinin göstərmişdir. Nəzarət eksperimentinin aşkar etdiyi kimi, eksperimental qrupda formalaşdırıcı tədrisə malik olmanın nəticəsində böyük məktəbəqədər yaş həddində olan uşaqlarda müvəffəqiyyətlə həll olunmuşdurlar.

Formalaşdırıcı metodikanın məktəbəqədər musiqi tərbiyəsi təcrübəsinə tətbiqi və 7 uşaq bağçasında tədrisi onun effektivliyini bir daha sübuta yetirmişdir. Tədqiqatın sona çatmasından sonra pedaqoqların metodikanın anketində öz əksinin tapmış bir sıra suallara cavab verdikləri sorgu da həyata keçirilmişdir:

1) Bu metodika uşaqlar tərəfindən öz həmyaşıdlarının musiqisi ilə ifaların təhlili, onlar tərəfindən proqramda olan repertuarların mənimsənilməsi keyfiyyətinə və uşaqların əqli inkişafına müsbət təsir göstəribmi:

2) Tapşırıqların yerinə yetirilməsi zamanı hansı çətinliklər meydana çıxmışdır:

3) Hansı tapşırıqlar sizin və uşaqların daha çox xoşuna gəlib:

4) Musiqi dəyərləndirməsinin hansı meyarlara daha mühüm, hansıları isə – daha cüzi tərzdə formalaşdırılmışdırlar.

Anketin suallarına cavab verməklə, eksperimental qrupun musiqi rəhbərləri metodikanın təklifinin, musiqi haqqında daha gözəl fikir söyləmək qabiliyyətinə malik olan, musiqini daha əlverişli bir tərzdə təhlil etməyi öyrənən və eləcə də əksər hallarda obrazlı ifadələrdən istifadə etməklə, ayrı-ayrı musiqi əsərlərinin müqayisə edən uşaqların emosional və əqli inkişafına müsbət təsirini də xüsusi olaraq vurğulamışdırlar. Uşaqlarda musiqili repertuarın mənimsənilməsinin keyfiyyəti də yüksəlmişdir. Bütün pedaqoqların yekdilliklə qeyd etdikləri kimi formalaşmanın sonunda uşaqlarda musiqi dəyərləndirməsinin adekvatlıq və emosionallıq kimi meyarları da əhəmiyyətli şəkildə formalaşmışdır. Eyni zaman da üstünlüklərin əsaslandırılması da kifayət etməmişdir. Pedaqoqların rəyinə əsasən isə tapşırıqlar uşaqların ifaçılıq və yaradıcılıq fəaliyyətini əhəmiyyətli tərzdə fəallaşdırmışdır.

Milli Kurikulumun reallaşmasına xidmət edən beş funksiyalardan ikisi belədir:

– ümumi təhsilin pillələri və bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi;

– təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında obyektiv qiymətləndirilməsi və stimullaşdırılması.

İkinci funksiyada göstərilən "konsentrik prinsip" ideyasının özü də fənn daxili şaquli inteqrasiya kimi qiymətləndirilə bilər. Şaquli inteqrasiya dedikdə aşağıdakılar nəzərdə tutulur:

1. Bağçalarda inteqrasiya;
2. Yaş qrupları arasında inteqrasiya;
3. Məktəbəqədər hazırlıq qrupları ilə ibtidai təhsil mərhələləri arasında inteqrasiya.

Məktəbəqədər müəssisələrdə üfüqi fəndaxili inteqrasiyanın sxemini belə göstərmək olar:



Məktəbəqədər təhsil pilləsində “Musiqi” fənninin digər fənlərlə inteqrasiyasını belə bir sxemlə göstərmək olar:




Yeni “Musiqi kurikulumu”nun tələblərinə görə pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələrə əsaslanmalıdır. Bu prosesdə musiqi müəllimi əlaqələndirici, istiqamətverici, məsləhətçi rolunu oynayır. Uşaqlar isə tədqiqatçı, tərbiyə olunan, yaradıcı rolunda iştirak edirlər.

Neçə on illərdir ki, “Musiqi” fənnin proqramı mövzululuq prinsipinə əsaslandığına görə bağçalarımızda əsasən aşağıdakı cədvəldə göstərilən məşğələ tiplərində geniş istifadə olunur:

| “Musiqi” fənni üzrə standart məşğələlərin tipləri | “Musiqi” fənni üzrə XX əsrin 80-ci illərində istifadə olunan məşğələ tipləri |
|---|---|
| **1.** Mövzuya giriş məşğələləri;<br>**2.** Mövzunun dərinləşdirilməsi məşğələləri;<br>**3.** Mövzunun yüngülləşdirilməsi məşğələləri<br>**4.** Yekun konsert məşğələləri | **1.** Konfrans məşğələləri;<br>**2.** Seminar məşğələləri;<br>**3.** Müzakirə məşğələləri;<br>**4.** Ekskursiya məşğələləri |

Məlum olduğu kimi ənənəvi məşğələlərdə əsasən “Mahnı oxuma”, “Musiqi dinləmə” və “Not savadı” kimi bölmələrindən istifadə olunurdu. Ona görə bu cür tipli məşğələlərdə məktəblilərin bir şəxsiyyət kimi inkişaf etməsinə cəhd göstərilmişdi, məşğələlər ətraf aləmlə əlaqəli şəkildə tədris olunurdu.

**Nəticə və təkliflərimiz aşağıda verilib**. Musiqi tərbiyəsinin ilkin şərtlərinin məktəbəqədər pedaqogikada formalaşdırılması problemi aktual və cüzi səviyyədə tədqiq olunan problem kimi çıxış etməkdədir. Eksperimentin nəticələrindən göründüyü kimi, metodik üsulların xüsusi kompleksinin tətbiqi şəraitində musiqi tərbiyəsinin ilkin şərtlərinin məktəbəqədər yaş həddində olan uşaqlarda formalaşdırılması mümkündür.

Musiqi tərbiyəsi uşağın musiqi qavrayışını fəallaşdırmasından, onun emosionallığına və dərketmə qabiliyyətinə təsir etməsindən, musiqi məşğələlərində uşaqların əqli fəallığının və uşaq ifasının keyfiyyətli səviyyəsinin artmasına yardım göstərməkdən ibarətdir. Bu zaman yaranan musiqi

qavramasının dəyərli əsasları uşaqları musiqi elementləri üçün xüsusilə əhəmiyyətli halların ayırd edilməsinə yönəlmişdir. Qiymət münasibəti nəinki uşaqlarda emosional həyəcanı və musiqi haqqında fikirləri azaltmamış, eləcə də əksinə, onları stimullaşdırmışdır. Emosional-qiymət münasibətləri uşaqlarda şəxsi ifasına nəzarət etmələrinə yardım etmiş və bunun da nəticəsində onun musiqi fəaliyyətinin müxtəlif növlərində keyfiyyəti daha da artmışdır.

Musiqi tərbiyəsinin ilkin şərtlərinin formalaşmasına dair təklif olunmuş metodika milli respublikaların uşaq bağçalarında istifadə oluna bilər.

Formalaşan tədqiqatın sonunda alınan eksperimental və nəzarət qrupları üzrə müqayisəli məlumatlar məktəbəqədər yaşlı uşaqların işlənib-hazırlanmış tədris metodikasının effektivliyini göstərmişdir.

Problemlə əlaqədar uşaq bağçası təcrübəsinin təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, musiqini tədris edərkən qabaqcıl tərbiyəçilər milli soykökümüzə, adət-ənənələrimizə əsaslanaraq tərbiyə prosesinə milli ruhu gətirmələrinə baxmayaraq, bu istiqamətdə işi gücləndirmək üçün təlim-tərbiyənin məzmununa, proqram və metodik tövsiyələrin məzmununa, tərbiyəçilərin metodik hazırlığına diqqət artırılmalıdır.

Musiqi tərbiyəsinin formalaşmasında digər sosial-psixoloji amillərlə yanaşı ana laylası, bayatı, nağıllar və şifahi xalq ədəbiyyatının digər nümunələri, bütövlükdə ədəbiyyatın güclü təsir vasitəsidir.

Aparılan tədqiqat bir daha sübut etdi ki, musiqi tərbiyəsinin formalaşdırılması və tərbiyəsi psixologiyanın digər tərkib hissələri olan mənlik şüurunun, özünüdərkin, təfəkkürün inkişafına təsir göstərir.

Bu proses eyni zamanda uşaqların ümumi psixi, fiziki, intellektual inkişafına, onlarda qarşılıqlı münasibətlərin təşkilinə və düzgün tənzimlənməsinə təsir göstərir.

1. Respublikamızda tədqiq etdiyimiz problemlə əlaqədar məqalələr, metodik və pedaqoji ədəbiyyat, dissertasiyalar uşaqların musiqi tərbiyəsinin problemlərini tam əhatə etmir.

2. Uşaq bağçaları üçün çap olunmuş “Musiqi müntəxabat”larındakı musiqi nümunələrinin bir çoxu uşaqların yaş xüsusiyyətlərinə, qavrama səviyyələrinə, ifa imkanlarına uyğun gəlmədiyindən onlardan tam şəkildə istifadə etmək olmur. Uşaq bağçalarında musiqi tərbiyəsi sistemində etnopsixoloji xüsusiyyətlər nəzərə alınmır və musiqi məşğələlərində musiqi əsərlərinin dinlənilməsi üçün fonomüntəxabatların olmaması pis nəticə verir.

3. Respublikada mövcud olan dövlət, özəl teleşirkətlərdə bağça yaşlı uşaqlar üçün musiqili verilişlərin yox dərəcəsində olması bu sahəyə mənfi

təsir göstərir.

4. Bağçalarda musiqi tərbiyəsi ilə əlaqədar bağça-ailə qarşılıqlı əlaqələr zəifdir.

Orta ixtisas və ali pedaqoji məktəblərdə musiqiyə ayrılan saatların miqdarı çoxalmalıdır. Musiqi rəhbərləri hazırlanan fakültələrdə onların professional hazırlığına (musiqi alətində çalmaq, xorla işləmək vərdişlərinə, musiqi nəzəriyyəsi biliklərinə yiyələnmək, sərbəst olaraq mahnıların melodiyasını notla oxumaq və onu fortepianoda müşayiət etmək və s.) diqqət artırılmalıdır.

Uşaq bağçaları üçün yaş xüsusiyyətlərini nəzərə alaraq, dövrün tələblərinə cavab verən yeni musiqi proqramları və ona uyğun not və fonomüntəxabatları dövlət hesabına yaradılmalıdır.

Musiqi məşğələlərinə ayrılan saatlar həftədə 4-5 saata qədər artırılmalıdır. Bağça uşaqları üçün onların yaş xüsusiyyətlərinə və maraqlarına uyğun gələn müxtəlif janrlı musiqi əsərlərini yaratmaqla əlaqədar Təhsil, Mədəniyyət və Turizm Nazirlikləri hər il bəstəkarlarımıza dövlət sifarişləri verməlidirlər. Tədqiqatdan alınan nəticələrdən aşağıdakı istiqamətlərdə istifadə etmək olar:

- uşaqlarda sərbəst təxəyyülün formalaşdırılmasına cəhd göstərilməsi;
- musiqiyə sərbəst surətdə münasibət göstərə bilmək;
- musiqi alətlərində improvizasiya etmək.

Qeyd olunan tövsiyələr nəticəsində gələcək musiqi müəllimlərinin həyata keçirəcəkləri musiqi məşğələlərinin yaradıcı xarakteri də aşağıdakı kimi aydınlaşdırılmışdır:

1) uşaqların təfəkkürünün fəallaşdırılmasına yönəlmiş metodların seçilməsi; 2)“Oxşarlıq və fərqlilik” metodik prinsipinin tətbiq edilməsi; 3) Yeni, əvvəlki və sonrakı musiqi materialları arasında əlaqələrin yaradılması; 4) Musiqi məşğələlərinin müxtəlif şəkillərdə qurulması.

Yuxarıda göstərilmiş nəticələrə uyğun olaraq aşağıdakı təklifləri irəli sürmək olar:

a) Azərbaycan Respublikasının Təhsil Qanununa əsaslanaraq musiqi müəllimlərinin professionallıq səviyyəsini qaldırmaq lazımdır;

b) Müəllim hazırlığı ilə əlaqədar olaraq musiqi ilə əlaqədar uşaq bağçalarında bu fənnə ayrılan praktik saatların miqdarı artırılmalıdır.

c) Musiqi müəllimi hazırlayan fakültələrində qəbul zamanı musiqi qabiliyyətlərinin də səviyyəsinin yoxlanılması məqsədəuyğundur;

d) Musiqi ixtisası üzrə oxuyan tələbələrə oxuduqları müddətdə bağça “Musiqi” məşğələlərinin məzmununun öyrədilməsi məqsədə uyğundur.

Bu nəticələrdən çıxış edərək aşağıdakı təklifləri irəli sürürük:

1. Şərq tərbiyə sistemi dəyərlərinin, Azərbaycan şifahi və yazılı abidələrinin təlim-tərbiyə prosesinə gətirilməsi məktəbəqədər yaşlı uşaqlarda musiqi tərbiyəsinin formalaşdırılmasına təsir göstərə bilər.

2. Uşaq bağçası üçün tərbiyə və təlim proqramı, həmçinin ali və orta ixtisaslı pedaqoji məktəblərin müvafiq fakültə və şöbələrinin proqramları təkmilləşdirilərkən uşaqların musiqi tərbiyəsinin formalaşmasının nəzərə alınması, şifahi xalq ədəbiyyatı nümunələrinə diqqətin artırılması məsləhətdir.

3. Uşaq bağçalarında həftədə 2 saat aparılan musiqi məşğələləri uşaqların musiqi inkişafı və mənəvi-estetik tərbiyəsi üçün kifayət deyildir. Ona görə də bu müəssisələrdə həyata keçirilən digər məşğələlərdə də musiqinin təlim və tərbiyəvi imkanlarından geniş istifadə etmək lazımdır.

4. Uşaq bağçalarında musiqili-didaktik oyunlarla əlaqədar yeni və müasir dövrün tələblərinə uyğun gələn metodik vəsaitlər yaradılmalıdır.

5. İxtisaslı musiqi rəhbərlərinin çatışmadığını nəzərə alaraq, musiqi məşğələlərinin səviyyələrini yüksəltmək üçün fonomüntəxabatların yaradılması çox vacibdir.

6. Məktəbəqədər tərbiyə və təlim müəssisələri dövlət tərəfindən uşaq musiqi alətləri ilə təmin olunmalıdır.

7. ADPU-də, AMİ-da, Bakı və regionlarda fəaliyyət göstərən ixtisasartırma institutlarında məktəbəqədər tərbiyə və təlim müəssisələrinin musiqi rəhbərləri üçün müntəzəm olaraq kurslar təşkil etmək lazımdır.

8. Respublika telekanallarında bağça yaşlı uşaqlarla əlaqədar xüsusi musiqi verilişlərinin və müsabiqələrin təşkili üçün Təhsil Nazirliyi bilavasitə təşəbbüs göstərməli və buna nail olmalıdır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Uşaqların musiqi tərbiyəsinin nəzəriyyə və metodikası. Pedaqoji İnstitutlar üçün. Bakı, APİ, 1988, 55 s.

2. Yaradıcılığını uşaqlara həsr etmiş bəstəkar. “Xəbərlər” (humanitar elmlər seriyası) Bakı, ADPU, 2006, N 3. s. 525-527

3. Məktəbəqədər yaşlı uşaqların həyatında musiqi. “Xəbərlər” (pedaqoji-psixoloji elmlər seriyası) Bakı, ADPU, 2008, N 4. s.225 - 228

4. Məktəbəqədər yaşlı uşaqlarda musiqi inkişafının əsas yaş dövrləri. “Xəbərlər” (pedaqoji-psixoloji elmlər seriyası) Bakı, ADPU, 2008, N 5 s.284-288

5. Məktəbəqədər yaşlı uşaqların bağçada musiqi tərbiyəsi.(Metodik tövsiyə) Bakı, ADPU, 2008. 42 s.
6. 5-6 yaşlı uşaqlarda musiqi zövqünün formalaşdırılması. Dil və Ədəbiyyat. Beynəlxalq Elmi-nəzəri jurnal BDU. 2009 N3. s.208-210.
7. Məktəbəqədər təhsil müəssisələrinin kiçik qruplarında musiqinin tədrisi metodikası Dil və Ədəbiyyat. Beynəlxalq Elmi-nəzəri jurnal BDU. 2009 N5. s.246-248
8. Məktəbəqədər təhsil müəssisələrinin kiçik qruplarında musiqi tərbiyəsi. Pedaqoji fakültənin 50 illiyinə həsr olunmuş elmi-praktik konfransın materialları. Bakı, ADPU – 2010, s.194-200.
9. Müasir dövrdə məktəbəqədər təhsil müəssisələrində musiqi tərbiyəsinin əhəmiyyəti ADMİU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı, ADMİU, 2012, s.89-91
10. «Высшая школа Казахстана» - международное научно - педагогическое издание «Методика музыкального воспитания в дошкольных образовательных учреждениях» Казахстан г. Алматы – 4 (1) 2012. с.199-203
11. Pedaqoji Universitet, Pedaqogika və psixologiya fakültə tələbələri üçün (m/q) "Musiqinin tədrisi metodikası" testlər (1000 test) Bakı, 2012, 208 s.
12. Методика преподавания музыки в дошкольных образовательных учреждениях» Развитие профессиональной компетентности специалистов в области реабилитации и образования инвалидов. Материалы научно-практической конференции. Санкт- Петербург, 2012. с.188-189
13. "Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsində Azərbaycan musiqisinin rolu" ADMİU-nun 90 illiyinə həsr olunmuş XII Beynəlxalq elmi-praktik konfransın materialları. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. Bakı, 2013, s.70-72
14. "Məktəbəqədər müəssisələrdə musiqi məşğələsi zamanı musiqili ritmik hərəkətlərə yiyələnmə metodları və üsulları" Təsviri və dekorativ -tətbiqi sənət məsələləri jurnalı, N1 (11) 2013. s.143-149
15. Uşaq bağçası müəssisələrində uşaqların məktəbə hazırlığı Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri XIII Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2014. s.78-81
16. Məktəbəqədər uşaqların əxlaqi tərbiyəsində musiqinin əhəmiyyəti. Tədrisdə dövlət strategiyası mövzusunda Elmi seminar toplusu. Bakı, ADPU, 2014. s.63-67

**Арифа Гаджибаба гызы Гарибова**

## Организация работы по музыкальному воспитанию детей в дошкольных учреждениях

### Резюме

Диссертация состоит из введения, 2 глав, 5 разделов, заключения и списка использованной литературы. Во введении обосновывается актуальность проблемы, объект и предмет исследования, задачи и научные инновации, методы и методологическая основа, теоретическая и практическая значимость диссертации.

Первая глава диссертации называется: **«Организация работы по музыкальному воспитанию в дошкольных учреждениях как педагогическая проблема»** и состоит из 3 параграфов.

**1.1. «Педагогические основы подготовки ребенка к школе».** Здесь проанализированы публикации о методе подготовки ребенка к школе ведущих ученых и профессоров. **1.2. «Организация музыкального образования детей дошкольного возраста в детском саду».** Здесь раскрываются методы духовного развития посредством музыкального образования, и доказывается степень обогащения внутреннего мира и менталитета детей в дошкольном возрасте. **1.3. «Показ проблемы в программах и новой стратегии обучения».** Здесь дается анализ публикаций и программ, написанных азербайджанскими и зарубежными учеными.

Вторая глава называется**: «Работа, проделанная по организации музыкального образования в дошкольных учреждениях»**. **2.1. «Организация музыкального воспитания в дошкольных учреждениях"**. Здесь анализируются музыкальные занятия в детских учреждениях и методы организации музыкального образования. **2.2. «Организация новых педагогических технологий в дошкольном музыкальном воспитании».** Здесь проделаны эксперименты на базе семи детских садов.

Результаты и рекомендации отражены в **заключении**.

**Arifa Hajibaba kizi Qaribova**

## Organization of the work on the musical education of children in preschool institutions

### Summary

The dissertation consists of the introduction, two chapters, five paragraphs, conclusion and a list of used literature. The actuality of the problem, the research object, the subject, the assumption, tasks, and methodological basis, methods, scientific innovation, the theoretical and practical importance are shown in the introduction.

**The first chapter of the dissertation is called "Organization of the work on the musical education in preschool institutions as a pedagogical problem"** and consists of 3 paragraphs.

The first paragraph is called **1.1. "Pedagogical basics of the child's preporation to school".** Publications about child's preporation to school written by professor and scientists was analised in the first paragraph.

The second paragraph is called **1.2. "Organization of music education of preschool-aged children in kindergarten"**. Besides the emotional influence of music, it enriches the inner world of children and develops their moral, intellectual ability and mentality..

The third paragraph is called **1.3. "Existing problems in programs and new learning strategy".** Analysis of publications and programs written by Azerbaijani and foreign scientists is given in this paragraph.

**The second chapter is called "The work done on the organization of musical education in preschool institutions"**

The first paragraph of the second chapter is called **2.1. "Organization of musical education in preschool institutions ".** This paragraph is about problems on musical education and organization of musical education.

The second paragraph is called **2.2. "Organization of new pedagogical technologies on musical education in preschool"**. Experiments on the subject in seven kindergartens are written in the paragraph.

The results and recommendations are given in the **conclusion**.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
ИМЕНИ У.ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**АРИФА ГАДЖИБАБА гызы ГАРИБОВА**

# ОРГАНИЗАЦИЯ РАБОТЫ ПО МУЗЫКАЛЬНОМУ ВОСПИТАНИЮ ДЕТЕЙ В ДОШКОЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

**5801.01- Теория и методика обучения и воспитания
(методика преподавания музыки)**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по педагогике

**БАКУ – 2014**